# Müstəqil iqtisadiyyatla siyasi müstəqilliyin uğur vəhdəti



## *Azərbaycanın dayanıqlı yüksəliş modeli dünyada özünü təsdiqləyir*

***"Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq". Bu fikirləri Prezident İlham Əliyev ötən il iqtisadi məsələlərə həsr olunmuş müşavirədə deyib.***

Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Dünya təcrübəsi də göstərir ki, azad iqtisadiyyatın inkişafına yönəldilmiş islahatlar kursunun ardıcıl davam etdirilməsi güclü siyasi hakimiyyət sayəsində mümkün olur. Bu baxımdan, Azərbaycanda iqtisadi inkişaf proseslərinin dönməz xarakter almasında Prezident İlham Əliyevin iradəsi və prinsipiallığı, xalqın ona inamı və davamlı dəstəyi həlledici rol oynayır. Bütün bunların nəticəsi kimi 2003-cü ildən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın dinamik inkişafı, dayanıqlı makroiqtisadi sabitlik təmin edilir, iqtisadiyyatın daha sürətlə şaxələndirilməsinə nail olmaq üçün mühüm proqramlar qəbul olunur. Cənubi Qafqazın lider dövləti səviyyəsinə yüksələn ölkəmiz regionda reallaşdırılan irimiqyaslı enerji, nəqliyyat layihələrinin moderatoru rolunda çıxış edir.

44 günlük Vətən müharibəsinin yekunu ölkəmizin iqtisadi, siyasi və hərbi cəhətdən regionda lider, dünya miqyasında böyük nüfuz qazanmış, qətiyyətli mövqeyi olan qüdrətli dövlət olduğunu bir daha təsdiq etmişdir. Həyata keçirilən sosial-iqtisadi inkişaf proqramları sayəsində bütün parametrlər üzrə özünün böyük resurs üstünlüyünü yaratmış Azərbaycan geosiyasi prosesləri öz xeyrinə dəyişməklə yanaşı, regionun iqtisadi coğrafiyasını yeni formata salmışdır.

**(davamı 3-cü səhifədə)**

# Müstəqil iqtisadiyyatla siyasi müstəqilliyin uğur vəhdəti

## *Azərbaycanın dayanıqlı yüksəliş modeli dünyada özünü təsdiqləyir*

(əvvəli 1-ci səhifədə)

Ölkənin iqtisadi potensialı, xammal və mineral ehtiyatlarla zənginliyi, təbii şəraiti və əlverişli iqtisadi-coğrafi mövqeyi əməkdaşlıq imkanlarını artırır. Xarici ölkələrlə iqtisadi əməkdaşlıq Azərbaycanın milli iqtisadiyyatının çoxşaxəli inkişafını təmin etmək üçün böyük üstünlüklər qazandırır.

Müasir tariximizə Zəfər seçkiləri kimi yazılan 7 fevral növbədənkənar prezident seçkiləri Azərbaycanın son 21 ildə qazandığı uğurlara verilən dəyərin, cənab İlham Əliyevə etimadın, inamın təntənəsi oldu. Regional inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilən Azərbaycan etibarlı və arzuolunan tərəfdaş kimi nüfuzunu günbəgün artırır. Hər dövrün öz çağırışı olduğu kimi, bərpaolunan enerji mənbələrinə investisiyaların yatırılması əsas hədəflər sırasındadır.

Dövlətimizin başçısı əmin olduğunu bildirir ki, strateji xətt üzrə aparılan bu islahatlar yaxın gələcəkdə də bizə əlavə imkanlar verəcək. Qarabağı və Şərqi Zəngəzuru öz hesabımıza yenidən qurmaq və bütün məqsədlərə çatmaq üçün mütləq güclü iqtisadiyyat bundan sonra da lazım olacaq. Çünki bu, əsasdır. O ölkələr ki, iqtisadi cəhətdən digər ölkələrdən, yaxud da ki, beynəlxalq maliyyə qurumlarından asılıdır, o ölkələr faktiki olaraq müstəqil siyasət aparmaqda çətinlik çəkirlər. Ona görə iqtisadi güc, iqtisadi müstəqillik bütün başqa sahələrdəki fəaliyyətin təməlidir. Prezident bu barədə deyib: "Azərbaycan tam iqtisadi müstəqillik əldə edib ki, bu, müstəqil xarici siyasət kursu həyata keçirmək üçün əsas faktordur və biz bunu uğurla edirik".








Xarici siyasətin düzgün müəyyənləşdirilməsi və icrası dünyanın mürəkkəb, həssas bölgəsində, coğrafi baxımdan Qərb və Şərqin kəsişməsində, sivilizasiyaların qovuşma məkanında, strateji yanaşmalarda isə geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşən Azərbaycan üçün həm ötən dövrlərdə, həm də indi müstəsna əhəmiyyətə malikdir. Belə ki, ölkəmiz öz milli maraqlarını, regionda aparıcı dövlət statusunu qorumaqla yanaşı, Qərb, İslam ölkələri, türk dünyası və digər siyasi iqtisadi-mədəni məkanları ilə qarşılıqlı faydalı münasibətlər qurur, beynəlxalq əməkdaşlığı və bərabərhüquqlu tərəfdaşlıq əlaqələrini genişləndirir.

Azərbaycan bir sıra beynəlxalq qurumlarda sadəcə üzv dövlət kimi təmsil olunmur, eyni zamanda bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. Həmçinin dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı isə məhz Azərbaycanın dörd illik sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşadı. Azərbaycanın sədrliyinin koronavirus (COVID-19) pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, ölkəmiz çevik və səmərəli şəkildə gündəliyini yeni reallığa uyğunlaşdırdı. Əlbəttə, bu prosesdə Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin təşəbbüskarlığı, qətiyyəti və siyasi iradəsi də mühüm rol oynadı. Pandemiyanın misli görünməmiş fəsadları qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü, dünyəvi problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsi Azərbaycanın dünyada artan nüfuzunun, möhkəmlənən yerinin və dünya siyasətində iştirak payının göstəricisi, müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların Bakıya olan marağının daha bir parlaq ifadəsi oldu. COP29-a ev sahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdi. Azərbaycanda "yaşıl iqtisadiyyat"a keçidin təməli qeyri-neft sektorunun inkişafına dövlət tərəfindən investisiyanın ayrılmasına xüsusi diqqət göstərilməsilə qoyulub. Artıq Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonasına çevrilir, ölkəmiz günəş və külək kimi təbii mənbələrdən enerji istehsalını ildən-ildə artırmağa davam edir.

Qarabağ və Şərqi Zəngəzuru "dəmir yumruq"la azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə artıq Zəfərimizdən ötən 4 il müddətində bu ərazilərdə misli görünməyən quruculuq həyata keçilir. Onu da deyək ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuğun görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitin həcmi ildən-ilə artırılır. Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan layihələrə nəzər yetirsək görərik ki, bəlkə də böyük dövlətlərin bir neçə il ərzində görə bilmədikləri işləri Azərbaycan cəmi 4 ildə reallaşdırıb. Bu ərazilərdə hava limanları, yaşayış məntəqələri, avtomobil və dəmir yolları, körpülər, tunellər, su anbarları, elektrik enerjisi stansiyaları, içməli su xətləri və sosial-iqtisadi infrastrukturun yaradılması dünyanın diqqətini cəlb edir.

Ölkəmiz xarici siyasət meydanında müstəqil siyasət yürüdür və heç bir dövlət öz iradəsini ona diktə edə bilməz. Azərbaycan daim öz milli maraqlarını, müstəqil və balanslaşdırılmış xarici siyasət prinsiplərini əsas tutaraq region dövlətlərinin inkişafı, ortaq mənafelərin ödənilməsi üçün sülh və əməkdaşlıq məkanına çevirməyə nail olur, beynəlxalq münasibətlərdə hüquq bərabərliyinə söykənən əməkdaşlıq modellərinə önəm verir. Azərbaycanın yürütdüyü çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası, ilk növbədə region və Qərb ölkələri ilə sağlam münasibətlərin inkişafını, bütün dövlətlər və koalisiyalarla qarşılıqlı faydalı əməkdaşlıq qurulmasını nəzərdə tutur.

Ekspertlər müstəqil Azərbaycanda cənab İlham Əliyev mərhələsini hərtərəfli inkişaf dövrü kimi səciyyələndirirlər. Məhz bu illərdə ölkəmiz həm regionda, həm də dünya birliyində özünün siyasi-mənəvi varlığını həmişəlik isbat etmişdir. İqtisadiyyatın şaxələndirilməsi siyasətini həyata keçirməsi cənab İlham Əliyevə neft gəlirlərindən asılı olan Azərbaycanı ölkənin digər təbii sərvətlərindən, xidmət sahələrindən və daxili potensialından gəlir əldə edən bir respublikaya çevirmək imkanları yaratmışdır. Prezident İlham Əliyev Azərbaycan dövlətçiliyində postneft dövrü inkişaf modelinin yaradıcısıdır və böyük bacarıqla ulu öndər Heydər Əliyevin imzaladığı "Əsrin müqaviləsi"nin müddəalarını tam yerinə yetirməklə Azərbaycanın neft sərvətlərinin xalqımıza xeyir və uğur gətirməsinə tam nail olmuşdur. Bakı-Tbilisi-Ceyhan (Ərzurum) neft-qaz kəməri görkəmli dövlət xadimi Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin başa çatdırdığı beynəlxalq layihədir. Dövlət başçısının gerçəkləşdirdiyi uğurlu diplomatiya son 21 ildə Azərbaycanın bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin etmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsi, TAP, TANAP layihələrinin reallaşdırılması, üç süni peykin orbitə buraxılması Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərini daha da gücləndirmişdir.

Azərbaycanda çox müsbət sərmayə iqlimi uzun illərdir davam edir. İnvestisiyaların adambaşına düşən həcminə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Son illər ərzində və xüsusilə antiterror tədbirlərindən sonra dövlət suverenliyimizin tam təmini bütün investorlar tərəfindən ciddi müsbət hal kimi qəbul edilir. Bakı, Sumqayıt şəhərlərində, eyni zamanda azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parklarının yaradılması təqdirəlayiq hal kimi qiymətləndirilir. Ölkə boyu tarazlı inkişaf davam edir, hər yerdə genişmiqyaslı quruculuq-abadlıq həyata keçirilir. Uğurla reallaşdırılan böyük investisiya tutumlu layihələr hesabına bu gün Azərbaycan güclü infrastruktur təminatına malik ölkəyə çevrilir. Yeni çəkilən rahat yollar, qazlaşdırmanın ən ucqar dağ kəndlərini belə əhatə etməsi, generasiya güclərinin artırılması, içməli və suvarma suyu ilə təminatın yüksək səviyyəyə qaldırılması, müasir standartlar səviyyəsində tikilən sosial təyinatlı obyektlərin istifadəyə verilməsi, həmçinin insanların gəlir imkanlarının artırılması ölkədə vətəndaş məmnunluğunu təmin edir.

Ən əsası Azərbaycan heç bir beynəlxalq donor təşkilatından asılı olmadan milli iqtisadiyyatını inkişaf etdirmək gücündə olan dövlətə çevrilmişdir. Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nəticələr beynəlxalq hesabatlarda da əksini tapmış, müxtəlif meyarlar üzrə reytinq cədvəllərində ölkəmizin mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Prezident İlham Əliyevin şaxələndirilmiş iqtisadi inkişaf modelində aqrar sektorun böyük payı vardır. Bu istiqamətdə həyata keçirilmiş islahatlar, sərf olunmuş məqsədyönlü yatırımlar, icrasına başlanılmış proqramlar aqrar sektorun da yenidən qurulmasında və inkişaf etdirilməsində mühüm rol oynamışdır. Ölkəmizdə elə iqtisadi rayon göstərmək mümkün deyildir ki, orada böyük inkişafın şahidi olmayasan. Dünyanın bir çox inkişaf etmiş ölkələrində inkişaf daha çox böyük şəhərlər və onların ətrafındakı kəndlərdə cəmləşdiyi halda Azərbaycanda dağ kəndlərindən tutmuş ölkəmizin fərqli imkanlara malik olan bütün regionlarında, Bakıətrafı kəndlərdə də müasir, yenilənmiş inkişafın şahidi oluruq.

Beləliklə, Azərbaycan xalqı yeni dövrün ilk günlərini yaşayır və Prezidentimizin də qeyd etdiyi kimi, yeni dövrə qədəm qoyarkən bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun.

**Mustafa KAMAL,**
**"Respublika".**

